

POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

30 oktyabr 2026-cı il
Cümə

1933-cü ildən çıxır
№ 41 (3804)

Dialoqdan sülhə



Azərbaycanda mədəniyyətlərarası dialoq aparılır

Oktyabrın 27-də Bakıda "Ortaq gələcək naminə dialoq" mövzusunda VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimi keçirilib. Tədbirdə çıxış edən Prezident İlham Əliyev mədəniyyətlərarası və dinlərarası münasibətlərdən, Azərbaycanın multikulturalizm ənənələrindən, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpasından, Ermənistanla sülh prosesindən, eləcə də beynəlxalq siyasətdə ikili standartlardan və Azərbaycanın qlobal miqyasda artan nüfuzundan danışıb.

100-dən artıq ölkədən 500-dən çox qonağın qatıldığı, ümumilikdə 2000-dən artıq iştirakçının qeydiyyatdan keçdiyi Forumun əhəmiyyətinə toxunan Prezident bildirib ki, Azərbaycanın təşəbbüsü ilə 2011-ci ildən keçirilən bu mötəbər tədbir ötən 15 il ərzində qlobal gündəlikdə dayanan aktual məsələlərin müzakirəsi üçün səmərəli beynəlxalq platformalardan biri halına gəlib.

Prezident İlham Əliyev ölkəmizdə yaşayan bütün xalqların azərbaycançılıq ideyası ətrafında birləşdiyini, bu birliyin xüsusilə Vətən müharibəsi dövründə özünü qabarıq göstərdiyini diqqətə çatdırıb. Müxtəlif etnik və dini qrupların nümayəndələrinin torpaqlarımızın azadlığı uğrunda eyni amal naminə mübarizə aparması Azərbaycan cəmiyyətində formalaşmış həmrəyliyin gücünü nümayiş etdirib. Müstəqilliyimizin bərpasının 35-ci ildönümünə də toxunan dövlətimizin başçısı bildirib ki, Azərbaycan xalqı müxtəlif tarixi mərhələlərdən keçməsinə baxmayaraq, milli kimliyini, dilini və ənənələrini qorumağa nail olub.

Çıxışında Ermənistanın uzun illər davam edən işğalçılıq siyasətinə geniş yer ayıran ölkə rəhbəri vurğulayıb ki, danışıqlar prosesinin nəticəsiz qalması, beynəlxalq təşkilatların qəbul etdiyi qərarların icra olunmaması Azərbaycanı öz qanuni hüquqlarından istifadə etməyə vadar edib.

Azərbaycanın hərbi Qələbədən sonra Ermənistana sülh təklif etməsini xüsusi əhəmiyyət daşıyan tarixi addım kimi qiymətləndirən Prezidentin fikrincə, müharibəni qalibiyyətlə başa vurduqdan sonra lazımi məqamda dayanmaq və sülhə üstünlük vermək Azərbaycanın digər münaqişələrin həlli baxımından da öyrənilməyə layiq təcrübəsidir.

Prezident vurğulayıb ki, müstəqil dövlətlərin daxili işlərinə müdaxilə cəhdləri və onlara kənardan diktə etmək meyilləri beynəlxalq münasibətlərdə qarşılıqlı hörmət prinsipinə ziddir. Azərbaycanın belə yanaşmaları qətiyyətlə rədd etdiyini bildirən dövlətimizin başçısı Ermənistanla sülh sazişinə də toxunub. Dövlətimizin başçısı layihənin Vaşinqtonda, ABŞ Prezidenti Donald Trampın iştirakı ilə paraflanmasını yeni siyasi reallıqların beynəlxalq səviyyədə təsdiqi baxımından mühüm mərhələ olduğunu bildirib.

Yubiley sərgisi

Prezident, birinci xanım və qızları sərgi ilə tanış olublar

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva oktyabrın 27-də Azərbaycan Milli İncəsənət Muzeyində Xalq rəssamı, Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilovun 80 illik yubileyinə həsr edilmiş "Mənim Abşeronum: Üstə gəl" adlı retrospektiv sərgi ilə tanış olublar.

Qeyd edək ki, sərgidə Xalq rəssamının şəxsi kolleksiyasından seçilmiş, 1960-cı illərdən bu günədək yaratdığı 90-dan çox əsər nümayiş olunur.

Azərbaycan İslam həmrəyliyini dəstəkləyir

Ölkəmiz Zirvə görüşünə ev sahibliyi edəcək

Prezident İlham Əliyev oktyabrın 27-də İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Səlim bin Məhəmməd əl-Maliki qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə ICESCO arasında əməkdaşlıqdan məmnunluğunu ifadə edib. Azərbaycanın İslam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində daim səylər göstərdiyini bildirən Prezident gələn il Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşünə ev sahibliyi edəcəyini və təşkilata sədrliyi həyata keçirəcəyini, ölkəmizin bundan sonra da həm İslam Əməkdaşlıq Təşkilatının, həm də ICESCO-nun fəaliyyətinə dəstəyini davam etdirəcəyini vurğulayıb.

Görüşdə Azərbaycan ilə ICESCO arasında əməkdaşlığın gündəliyində duran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Prezident açılış mərasimində

Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri Azərbaycan komandasının futbolçuları ilə görüşüblər

Oktyabrın 24-də Bakı Kristal Zalında 15 yaşadək oğlanlar arasında futbol üzrə ilk dünya çempionatı və festivalının (FIFA U-15 World Cup and Festival) rəsmi açılış mərasimi keçirilib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, ailə üzvləri və FIFA prezidenti Canni İnfantino mərasimi izləyiblər. Canni İnfantino dövlətimizin başçısına xatirə hədiyyələri təqdim edib. Dövlətimizin başçısı, birinci xanım, ailə üzvləri Azərbaycan-Timor-Leste yığmalarının oyununu izləyiblər, oyundan sonra isə Azərbaycan komandasının futbolçuları ilə görüşüblər.

Kollegiya iclası keçirilib

Cinayətkarlığa qarşı mübarizə ötən dövrdə də məqsədyönlü şəkildə davam etdirilib

Oktyabrın 29-da Daxili İşlər Nazirliyində 2026-cı ilin 9 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib. İclası giriş sözü ilə açan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov cinayətkarlığa qarşı mübarizənin, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində fəaliyyətin digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə cari ilin ötən dövründə də məqsədyönlü şəkildə davam etdirildiyini bildirib.

(Ardı 2-ci səhifədə)

Zəfərdən təhlükəsizliyə, təhlükəsizlikdən quruculuğa

Şəhər günləri Qarabağda həm də əmin-amanlığın rəmzidir

Vətən müharibəsində qazandığımız tarixi Zəfər sayəsində işğaldan azad edilən torpaqlarımızda aparılan genişmiqyaslı quruculuq işləri ilə tarixi ədalət evbəev, küçəbəküçə bərpa olunur. Bu ədalət həm siyasi və tarixi müstəvidə, həm də doğma yurduna dönən vətəndaşlarımızın yenidən ailə ocağının başına toplaşmasında, rahat və təhlükəsiz yaşamaq imkanına qovuşmasında təcəssüm edir.


(Ardı 2-ci səhifədə)

Daxili işlər naziri vətəndaş qəbulu keçirəcək



2

Şəhərin yaddaşı



3

Sənədlərin kriminalistik ekspertizası



4

Polis kapitanı dünya çempionu olub



4

Daxili işlər naziri vətəndaş qəbulu keçirəcək

Gəncədə qəbul və sıra baxışı olacaq

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov noyabrın 13-də Gəncə şəhərində növbəti vətəndaş qəbulu və polis orqanları, o cümlədən daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirəcək.

Gəncə Şəhər Baş Polis İdarəsinin inzibati binasında keçiriləcək qəbulda Gəncə, Naftalan, Samux, Göygöl, Goranboy, Daşkəsən, Xocalı, Kəlbəcər şəhər və rayonlarının sakinləri iştirak edə bilərlər.

Vətəndaşlar nazirliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı noyabrın 12-dək yaşadıqları ərazinin polis orqanına, habelə nazirliyin "E-Polis" mobil tətbiqi, e-xidmet.mia.gov.az elektron xidmət portalı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan namizədlərin sıra baxışı noyabrın 13-də 08:00-da DİN Daxili Qoşunların Gəncə şəhərində yerləşən hərbi hissəsində keçiriləcək.

Qeyd edək ki, qəbula və sıra baxışına gələnlər şəxsiyyət vəsiqələrini təqdim etməlidirlər.

Respublika xəbərləri

Əməkdaşlıq sazişi təsdiqləndi

Prezident İlham Əliyev Azərbaycan Respublikası Hökuməti və Qırğızıstan Respublikası Nazirlər Kabineti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında sazişi təsdiq edib. Sənəd 2026-cı il sentyabrın 10-da Astanada imzalanıb. Saziş qüvvəyə mindikdən sonra onun müddəalarının icrasını Azərbaycanın Daxili İşlər Nazirliyi təmin edəcək.

Xankəndidə beynəlxalq tədbir

Xankəndi şəhərində Azərbaycan-Birləşmiş Millətlər Təşkilatı tərəfdaşlığı çərçivəsində Qarabağda Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi və regionun inkişafı məsələləri müzakirə olunub. Tədbirdə bərpa-quruculuq işləri, təhlükəsiz məskunlaşma, iqtisadi canlanma, yaşıl enerji və insan kapitalının inkişafı məsələlərinə xüsusi diqqət yetirilib.

Xocavənd və Ağdərəyə köç...

"Böyük Qayıdış" proqramı çərçivəsində Xocavənd və Ağdərə rayonlarının beş yaşayış məntəqəsinə 42 ailə, ümumilikdə 163 nəfər köçürülüb.

Minatəmizləmə davam edir

Ötən həftə ərzində azad edilmiş ərazilərdə 42 tank əleyhinə mina, 122 piyada əleyhinə mina və 526 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Ümumilikdə 997 hektar ərazi minalardan təmizlənib.

Qarabağda planlaşdırma tamamlanır

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 100-dən çox kənd və qəsəbənin ərazi planlaşdırılması başa çatdırılıb. Həmin ərazilərdəki 12 şəhərin hamısının baş planı hazırlanıb. Ölkənin 79 şəhərindən 68-nin yeni baş planı hazırlanıb və ya mövcud planları yenilənib.

Valyuta ehtiyatlarımız dünya normasını üstələyir

Azərbaycanın strateji valyuta ehtiyatları artaraq 89,4 milyard ABŞ dolları səviyyəsinə yüksəlib. Mərkəzi Bankının sədri Taleh Kazımov bildirib ki, beynəlxalq təcrübəyə əsasən, bu göstəricinin norması 3 ay təşkil etməlidir. Azərbaycanda isə bu rəqəm 40 aya bərabərdir ki, bu da olduqca böyük maliyyə yastığıdır.

Qarabağa nə qədər vəsait yönəldilib?

Bu ilin yanvar-sentyabr aylarında Azərbaycan işğaldan azad olunmuş ərazilərinin yenidən qurulmasına və bərpasına 1 milyard 761,4 milyon manat vəsait yönəldib. Həmin vəsaitin böyük hissəsi - 891,8 milyon manatı su təsərrüfatı, meliorasiya, istilik təchizatı, nəqliyyat, kommunal infrastrukturlarının tikintisinə və yenidən qurulmasına yönəldilib.

Kollegiya iclası keçirilib

Cinayətkarlığa qarşı mübarizə ötən dövrdə də məqsədyönlü şəkildə davam etdirilib





(Əvvəli 1-ci səhifədə)

Qeyd olunub ki, hesabat dövründə əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə qeydə alınmış 22.804 cinayətin 90,5 faizinin açılması təmin olunub.

Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış cinayətlərin 93,7 faizi açılıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cinayətlərin sayı 5,7 faiz, o cümlədən ağır və xüsusilə ağır cinayətlər, qeyri-aşkar şəraitdə baş verənlər, adam öldürməyə cəhdlər, qəsdən sağlamlığa ağır və az ağır zərər vurmalar, mülkiyyət əleyhinə olanlar, onlardan oğurluqlar, dələduzluqlar, quldurluqlar, hədə-qorxu ilə tələb etmələr, avtonəqliyyat vasitəsinin qaçırılması, habelə xuliqanlıqlar, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilənlər, odlu silahın tətbiqi ilə və qrup halında baş verən hüquqazidd əməllərin sayı azalıb.

Qeyri-aşkar şəraitdə törədilənlərin, eləcə də ağır və xüsusilə ağır cinayətlərin, əzab vermələrin, mülkiyyət əleyhinə olanların, o cümlədən oğurluqların, dələduzluqların açılması yaxşılaşıb, qəsdən adam öldürmələrin, cibgirliklərin açılması tam təmin olunub.

Keçmiş illərdən bağlı qalmış 294 cinayət açılıb və axtarışa elan edilmiş şəxslərin 87,2 faizi tutulub. Ağır və xüsusilə ağır cinayətlər törətmiş 402 nəfərdən ibarət 146 cinayətkar qrup zərərsizləşdirilib. Baş vermiş xırda talama faktlarının 87 faizi açılıb, dəymiş



maddi ziyanın 85 faizi ödətdirilib.

Qanunsuz dövriyyədən 6 ton 443 kiloqram, yəni ötən ilin eyni dövrü ilə müqayisədə 1 ton 780 kiloqram çox narkotik vasitə çıxarılıb.

Yol-nəqliyyat hadisələrinin sayı 67 fakt, qəzalarda ölənlərin sayı 7 nəfər və xəsarət alanların sayı 117 nəfər azalıb.

Gündəlikdəki məsələlər barədə Nazirliyin aidiyyəti baş idarələrinin rəisləri həyata keçirilmiş tədbirlər, əldə edilmiş nəticələr, yol verilmiş nöqsanların aradan qaldırılması üzrə görülmüş işlər barədə məruzə edib, eyni zamanda məruzəətrafı çıxışlar dinlənilib.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V. Eyvazov xidməti vəzifələrin və qarşıya qoyulan tapşırıqların hesabat dövründə bütövlükdə layiqincə yerinə yetirildiyini qeyd edib, fəaliyyətin effektivliyinin artırılması ilə bağlı qarşıda duran vəzifələri müəyyən edib.

Nazir cinayətkarlığın bütün təzahürlərinə, xüsusilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin qətiyyətlə davam etdirilməsinin vacibliyini vurğulayıb, bu sahədə əməliyyat-axtarış tədbirlərinin, internet informasiya resursları vasitəsilə narkotiklərin satışını həyata keçirmək cəhdlərinin qarşısının alınması üzrə fəaliyyətin səmərəliliyinin artırılması, qanunsuz dövriyyə kanallarının vaxtında zərərsizləşdirilməsi və profilaktik tədbirlərin gücləndirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

Polis orqanlarının istintaq və təhqiqat qurumlarında fəaliyyətin təşkili məsələlərinə də toxunan nazir cinayət işlərinin hərtərəfli, obyektiv və qanunvericiliyin tələblərinə uyğun araşdırılmasının, prosessual müddətlərə ciddi riayət olunmasının, vətəndaş müraciətlərinə həssas yanaşılmasının və ibtidai araşdırmanın keyfiyyətinin yüksəldilməsinin zəruriliyini diqqətə çatdırıb. Hər bir müstəntiqin və təhqiqatçının əsas vəzifəsinin insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və vətəndaş məmnunluğunun təmin edilməsi olduğunu vurğulayıb və aidiyyəti üzrə konkret tapşırıqlar verib.

Müasir texnologiyaların tətbiqinin və idarəetmədə rəqəmsallaşmanın genişləndirilməsinin fəaliyyətin səmərəliliyin artırılmasında, operativliyin təmin edilməsində və xidmətin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynadığını bildirən nazir informasiya sistemlərinin imkanlarından səmərəli istifadənin, idarəetmə proseslərinin təkmilləşdirilməsinin davam etdirilməsinin vacibliyini vurğulayıb.

İlin başa çatmasına az müddət qaldığını diqqətə çatdıran general-polkovnik Vilayət Eyvazov əldə edilmiş müsbət nəticələrin davam etdirilməsini, arxayınçılığa yol verilməməsini, şəxsi heyətin peşəkarlığının yüksəldilməsini, icra intizamının gücləndirilməsini, müasir texnologiyaların fəaliyyətdə daha geniş tətbiqi üçün təşəbbüskarlığın artırılmasını, bütün qüvvə və imkanların qarşıda duran vəzifələrin yerinə yetirilməsinə səfərbər olunmasını tələb edib, eləcə də bu və digər istiqamətlər üzrə konkret tapşırıqlar verib.

Zəfərdən təhlükəsizliyə, təhlükəsizlikdən quruculuğa

Şəhər günləri Qarabağda həm də əmin-amanlığın rəmzidir

(Əvvəli 1-ci səhifədə)

Bu ay ərzində Cəbrayılın, Zəngilanın, Qubadlının Şəhər günlərinin qeyd olunması bir daha göstərdi ki, Qarabağ və Şərqi Zəngəzurda əmin-amanlıq artıq faktdır, gündəlik şəhər həyatının reallığıdır.

Şəhər və təhlükəsizlik anlayışları bir-biri ilə o qədər sıx bağlıdır ki, onları ayrı təsəvvür etmək mümkün deyil. İnkişaf edən şəhərin təməlində, ilk növbədə, təhlükəsiz mühit dayanır. Dünya təcrübəsi də sübut edir ki, şəhərlər yalnız sabitliyin hökm sürdüyü, kriminal risk və təhdidlərin qarşısının alındığı şəraitdə sürətlə inkişaf edir, insanlar rahat yaşamaq, qurub-yaratmaq və ictimai həyatda fəal iştirak etmək imkanı qazanırlar. Qarabağ və Şərqi Zəngəzura müəyyən fasilələrlə səfər edənlər belə bu ərazilərdə quruculuq işlərinin necə sürətlə aparıldığının, cəmi altı il əvvəl işğaldan azad edilmiş şəhər və rayonların da ölkəmizin digər bölgələri kimi təhlükəsiz yaşayış məkanlarına çevrildiyinin şahidi olurlar.

Bu tablonu dövlətin qətiyyətli iradəsi, Azərbaycan əsgərinin canı bahasına apardığı mübarizə və polisin fədakar xidməti tamamlayır. Sıralarında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının da döyüşdüyü Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsi ilə həmin ərazilərdə hüquq qaydasının bərpası istiqamətində çox ciddi bir mərhələ başlandı. İctimai asayişin qorunması, qanunçuluğun təmin edilməsi, vətəndaşların təhlükəsizliyinin etibarlı mühafizəsi üçün polis şöbələri bu ərazilərə köçürüldü. Uzun illər işğal altında qalmış torpaqlarda Azərbaycan qanunlarının tətbiqi, dövlət hakimiyyətinin və hüquq qaydasının bərpası ilə suverenliyimiz əməli təsdiqini tapdı beləcə.

Bu gün də polis üçün müharibə zamanı atılıb qalan silah və sursatların aşkar edilərək götürülməsi, mümkün kriminal risklərin qarşısının alınması, ictimai asayişin təmin edilməsi kimi vəzifələr müəyyən edilib. İşğal dövründən qalan minalar və partlamamış hərbi sursatlar təhlükə yaratmasın deyə tədbirlərini davam etdirən polisin xidməti ictimai asayişin qorunmasından daha geniş məzmun daşıyır. Təhlükəli ərazilərlə bağlı xəbərdarlıqlar edilməsi, əhalinin maarifləndirilməsi, şübhəli əşyalara toxunulmaması barədə profilaktik tədbirlər təhlükəni önləməklə şəhərləri yaşanılabilən hala gətirir.

Digər tərəfdən, Qarabağ və Şərqi Zəngəzurda təhlükəsizlik məsələsi həm də xalqımızın tarixi yaddaşının, milli-mənəvi irsinin qorunması ilə bağlıdır. İşğal illərində dağıntılara baxmayaraq, günümüzə qədər gəlib çatmış tarixi və mədəni abidələrin mühafizəsi polisə əmanətdir. Həmin abidələrin, eləcə də



dövlət və ictimai əmlakın qanunsuz müdaxilələrdən qorunması istiqamətində görülən hüquq mühafizə tədbirləri xalqımızın keçmişi ilə gələcəyi arasındakı mənəvi bağları yaşadır.

Azərbaycan polisi öz vəzifəsini dövlətə və xalqa sədaqətlə xidmət etmək andına son nəfəsinədək bağlı qalmaqla yerinə yetirir. Ölkəmizin bütün ərazisində, xüsusən Qarabağ və Şərqi Zəngəzurda ictimai asayişin və sabitliyin etibarlı qorunması dövlətçilik qarşısında müqəddəs misiyadır. Uzun illər işğal altında qalmış, bu gün isə yenidən qurulan şəhərlərimizdə həmin xidmətin mənəvi dəyəri daha dərin, daha aydın hiss olunur. Axı burada qorunan əmin-amanlıq böyük qurbanlar bahasına qazanılmış azadlığın bəhrəsidir!

R.Mehtiyev

Şəhərin yaddaşı


Təhlükəsizliyin rəqəmsal tərəfi

Şəhər həyatı daim hərəkətdədir. Küçələrdə nəqliyyatın intensivliyi, ictimai məkanlarda insan axını gündəlik mənzərənin ayrılmaz hissəsidir. Bu axında baş verən bir hadisənin aydınlaşdırılması üçün bəzən ən kiçik detal belə həlledici əhəmiyyət daşıyır. Belə məqamlarda texnologiyanın imkanları önə çıxır. "Təhlükəsiz şəhər" sistemi də bu baxımdan müasir polis fəaliyyətinin mühüm vasitələrindən biridir. "Şəhərin yaddaşı" deyə biləcəyimiz bu görüntülər hadisələrin izlərini araşdırmaq, ayrı-ayrı detalları əlaqələndirmək və həqiqəti üzə çıxarmağa imkan yaradır.

Bir görüntünün arxasında nə dayanır?

Məsələn, ictimai yerdə baş vermiş oğurluğun araşdırılması zamanı yalnız hadisə anının görüntüləri ilə kifayətlənmək mümkün olmur. Əməli törədən şəxsin əraziyə haradan gəldiyi, sonradan hansı istiqamətə getdiyi və hərəkət marşrutu da əhəmiyyət daşıyır. Müxtəlif nöqtələrdəki kameraların qeydlərinin müqayisəsi hadisənin daha dolğun mənzərəsini yaratmağa kömək edir. Ayrı-ayrı görüntülər bir-birini tamamlayır, əvvəlcə əhəmiyyətsiz görünən detal digər məlumatlarla əlaqələndirildikdə mühüm məna qazanır. Bununla belə, texniki vasitələr bütün suallara avtomatik cavab vermir. Görüntülərin keyfiyyəti, kameraların əhatə dairəsi və qeydlərin dolğunluğu araşdırmanın nəticəsinə təsir göstərən amillərdəndir. Əldə olunan məlumatların yoxlanılması, digər materiallarla müqayisəsi və düzgün qiymətləndirilməsi isə polis əməkdaşlarından diqqət və peşəkarlıq tələb edir. Kamera hadisəni qeydə alır, həmin qeyddəki detalları üzə çıxarmaq və əsaslı nəticəyə gəlmək isə insanın bilik və təcrübəsindən asılıdır. "Təhlükəsiz şəhər" sisteminin əhəmiyyəti yalnız cinayətlərin açılmasına verdiyi töhfə ilə ölçülmür. İctimai təhlükəsizlik həm də təhlükəli vəziyyətlərin vaxtında aşkarlanmasını, düzgün qiymətləndirilməsini və operativ müdaxiləni tələb edir. Müxtəlif ərazilərdəki vəziyyət barədə məlumatın vaxtında əldə olunması aidiyyəti xidmətlərin fəaliyyətinin əlaqələndirilməsinə, hadisə yerinə yönəldilən əməkdaşların daha hazırlıqlı hərəkət etməsinə kömək edə bilər. Beləliklə, texnologiya küçədə xidmət aparan polisin fəaliyyətini tamamlayır, məlumat əldə etmək və çevik qərar vermək imkanlarını genişləndirir.

Lakin texniki sistemin mövcudluğu özlüyündə təhlükəsizliyə



zəmanət deyil. Nəticə həmin imkanlardan səmərəli istifadədən, məlumatın düzgün təhlilindən və xidmətlər arasında əlaqəli fəaliyyətdən asılıdır.

Bu sahədə qanunçuluq prinsiplərinə riayət olunması da mühüm əhəmiyyət daşıyır. Şəxsi həyatın toxunulmazlığına hörmət, məlumatların qorunması və onlardan qanuni məqsədlərlə istifadə edilməsi texnologiyanın tətbiqində əsas meyarlardır. Texniki imkanlar genişləndikcə onlardan məsuliyyətlə istifadə zərurəti də artır.

Texnologiya və insan amili

Ən müasir avadanlıq belə insanın təcrübəsini, müşahidə qabiliyyətini və analitik düşüncəsini əvəz etmir. Eyni görüntüdə müxtəlif detallar diqqəti çəkə bilər. Peşəkar əməkdaşın vəzifəsi isə həmin detallar arasından araşdırma üçün əhəmiyyətli olanları seçmək, onları digər məlumatlarla əlaqələndirmək və düzgün nəticə çıxarmaqdır.

Buna görə müasir polis fəaliyyətində texniki biliklərlə yanaşı, diqqət və məsuliyyət də mühüm yer tutur. Məlumatı düzgün təhlil etmək və ondan qanuni əsaslarla istifadə etmək həmin məlumatı əldə etmək qədər vacibdir. Şəhərin təhlükəsizliyinin təmin olunması çox vaxt göz önündə olmayan belə işlərə söykənir. Bəzən bir neçə saniyəlik görüntü hadisənin aydınlaşdırılmasına kömək edir, bəzən vaxtında ötürülən məlumat çevik müdaxiləyə şərait yaradır. Hər iki halda texnologiyanın yaratdığı imkan peşəkar fəaliyyət sayəsində nəticəyə çevrilir. "Təhlükəsiz şəhər" sisteminin əhəmiyyəti də məhz bu vəhdətdə üzə çıxır. Şəhərin yaddaşında qalan bir detal polis əməkdaşının diqqəti və təcrübəsi sayəsində cinayətin açılmasına, təhlükənin vaxtında müəyyənləşdirilməsinə və insanların təhlükəsizliyinin qorunmasına kömək edə bilər.

Ekran arxasındakı təhlükə

Saxta görüntülər real təhdiddir



Müasir texnologiyalar vasitəsilə insanın səsini təqlid edərək demədiyi sözləri onun adından səsləndirmək, görüntüsünü saxtalaşdıraraq iştirak etmədiyi hadisənin içində göstərmək mümkündür. Rəqəmsal texnologiyalar vasitəsilə hazırlanan belə saxta materiallar bəzən ilk baxışdan həqiqi təsir bağışlayır. Bu imkanlardan cinayət məqsədilə istifadə edənlər insanların etibarını qazanmağa, onları aldatmağa, nüfuzuna zərər vurmaqla hədələyərək pul tələb etməyə çalışırlar.

Buna görə də rəqəmsal mühitdə təhlükəsizlik yalnız hesabların və bank kartlarının qorunması ilə məhdudlaşmır. Şəxsi həyatın toxunulmazlığının və insanın nüfuzunun müdafiəsi də xüsusi əhəmiyyət daşıyır.

►Etibar qazanmaq, sonra sui-istifadə etmək

Kiberdələduzluq çox vaxt qarşı tərəfdə inam yaratmaq cəhdi ilə başlayır. Özünü bank əməkdaşı, dövlət qurumunun nümayəndəsi və ya tanış şəxs kimi təqdim edən dələduz əvvəlcədən əldə etdiyi məlumatlardan istifadə etməklə söhbətini inandırıcı göstərməyə çalışır. Şəxsin adını, iş yerini və digər məlumatlarını bilməsi onun etibarlı olduğu barədə yanlış təsəvvür yarada bilər. Bundan sonra hesabın təhlükədə olduğu, bank kartının bloklanacağı və ya təcili ödəniş edilməsinin vacibliyi bildirilir. İnsanı tələsdirmək, düşünməsinə və məlumatı yoxlamasına imkan verməmək bu üsulun əsas xüsusiyyətlərindəndir. Fişinq zamanı isə bankın, dövlət qurumunun və ya tanınmış şirkətin adından saxta mesajlar göndərilir. Mesajdakı keçid istifadəçini həqiqi səhifəyə bənzəyən saxta ünvana yönləndirir. Həmin səhifəyə daxil edilən fərdi məlumatlar, giriş şifrələri və təsdiq kodları dələduzların əlinə keçə bilər.

Belə müraciətlərlə qarşılaşdıqda məlumatı qurumun rəsmi əlaqə vasitələri ilə yoxlamaq vacibdir. Bank kartının CVV və PIN kodları, hesablara giriş şifrələri, eləcə də birdəfəlik təsdiq kodları heç kimlə paylaşılmamalıdır. Qarşı tərəfin şəxsi məlumatlarınızı bilməsi və ya özünü rəsmi qurumun əməkdaşı kimi təqdim etməsi onun tələblərini yerinə yetirmək üçün əsas deyil.

►Saxta görüntü, real şantaj

Süni intellekt vasitəsilə şəxsin üzünü başqa görüntüyə yerləşdirmək, səsini təqlid etmək, həqiqətə uyğun təsir bağışlayan saxta foto və videolar hazırlamaq mümkündür. Bu texnologiyalardan sui-istifadə edənlər sosial şəbəkələrdəki görüntülər əsasında insanları heç vaxt iştirak etmədikləri vəziyyətlərdə təsvir edə bilirlər. Belə materialların yayılması ilə hədələyərək pul tələb olunması təhlükəli şantaj üsullarındandır. Cinayətkar şəxsin ailəsinin, yaxınlarının və iş yoldaşlarının münasibətindən narahat olacağını nəzərə alaraq ona psixoloji təzyiq göstərir. Məqsəd zərərçəkmişi qorxu altında saxlamaq və tələblərini yerinə yetirməyə məcbur etməkdir. Bəzi hallarda tələblər pul ödənilməsi ilə məhdudlaşmır. Şantajçı əlavə görüntülər, fərdi məlumatlar istəyə və ya şəxsi müəyyən hərəkətlərə vadar etməyə çalışa bilər. Tələblərin yerinə yetirilməsi isə təhdidlərin dayanacağına zəmanət vermir. Əldə etdiyi nəticədən istifadə edən cinayətkar yeni tələblər irəli sürə bilər. Bu vəziyyətlə üzləşən insanların baş verənləri gizlətməsi yardım almağı gecikdirir. Saxta görüntünün mövcudluğu həmin materialda təsvir edilən hadisənin baş verdiyini göstərmir. Təhdid altında olan şəxs bunu nəzərə almalı, qorxu və utanc hissinin onun qərarlarına təsir etməsinə imkan verməməlidir.

►Təhdidlə qarşılaşdıqda nə etməli?

Hədə-qorxu ilə üzləşən şəxsdə qorxu və çaşqınlığın yaranması başadüşüləndir. Qarşı tərəf də məhz bu vəziyyətdən istifadə edərək pulun dərhal göndərilməsini tələb edir, məlumatları yayacağını bildirir və heç kimə müraciət etməməyi tapşırır. Belə məqamda tələsik qərar verməmək, pul göndərməmək, əlavə görüntü və fərdi məlumat paylaşmamaq vacibdir. Hadisə ilə bağlı sübutlar qorunmalıdır. Yazışmalar, profil ünvanları, istifadəçi adları, telefon nömrələri, ödəniş tələbləri, tarix və saat məlumatları saxlanılmalı, mümkün olduqda ekran görüntüləri götürülməlidir. Hesaba giriş məlumatları paylaşılıbsa, şifrələr etibarlı cihazdan dəyişdirilməli, açıq sessiyalar yoxlanılmalı və iki mərhələli doğrulama aktivləşdirilməlidir. Müxtəlif hesablarda eyni şifrədən istifadə olunması əlavə risk yaratdığından hər hesab üçün fərqli şifrə seçilməlidir. Təhdidlə üzləşən şəxslər polisə müraciət etməkdən çəkinməməlidirlər. Vaxtında müraciət və mövcud materialların təqdim olunması hadisənin araşdırılmasına, cinayətdə iştirak edən şəxslərin müəyyənləşdirilməsinə kömək edə bilər. Kibercinayətkarlıqla mübarizə elektron sübutların toplanmasını və təhlilini, müasir texnologiyalardan istifadəni, eləcə də əməliyyat tədbirlərinin həyata keçirilməsini tələb edir. Polisin bu istiqamətdə fəaliyyəti internet vasitəsilə törədilən cinayətlərin aşkarlanması, qarşısının alınması və vətəndaşların hüquqlarının qorunması baxımından mühüm əhəmiyyət daşıyır. Elektron yazışmalar, hesabların fəaliyyəti, ödəniş məlumatları və digər rəqəmsal izlər araşdırma üçün əhəmiyyətli ola bilər. Buna görə də zərərçəkmişin saxladığı materiallar və verdiyi məlumatlar hadisənin hallarının aydınlaşdırılmasına kömək edir. Maarifləndirmə də bu mübarizənin vacib istiqamətlərindəndir. Polisin vətəndaşlara ünvanladığı xəbərdarlıqlar şəxsi məlumatların qorunmasına, saxta mesajların və şübhəli müraciətlərin vaxtında tanınmasına xidmət edir. Rəqəmsal mühitdə diqqətli davranmaq, qarşı tərəfin kimliyini yoxlamaq və məxfi məlumatları qorumaq təhlükə ilə üzləşmək ehtimalını azaldır. Təhdid baş verdikdə isə onu gizlətməmək, sübutları saxlamaq və polisə müraciət etmək vacibdir.

F.Məmmədova

Cinayətkar birliyin üzvləri həbs edilib

Cinayət işi üzrə araşdırma davam edir

Oktyabrın 23-də saat 00:10 radələrində paytaxtın Xətai rayonu, General Şıxlinski küçəsində yerləşən restoranlardan birində 43 yaşlı C. Mirağayevin bıçaq xəsarətlərindən qətlə yetirilməsi ilə nəticələnən hadisə baş verib. Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin istintaq qrupu tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində hadisənin planlı şəkildə təşkilində iştirak etdikləri müəyyən olunan, əvvəllər məhkum olunmuş R.Dadaşov, E.Eldarov, Ə.Əlizadə, İ.Kazımov, H.Zülfüqarov, F.Əyyublu və X.Səfixanov, eləcə də M.İsmayılov, K.Əfəndiyev, E.Səfərov və E.Nuriyev həbs ediliblər.

Qeyd olunan şəxslərin cinayətkar aləmin qaydalarına uyğun həyat tərzi keçirməklə, mütəmadi qanunsuz fəaliyyətlə məşğul olduqları, kriminal araşdırmalar aparmaq adı altında hədə-qorxu ilə pul tələb edilməsi, cinayətkar dairələrdə nüfuz qazanmaq və tələblərinə tabe olmayan şəxsləri sərt cəzalandırmaq üçün odlu, həmçinin soyuq silahlardan istifadə etməklə qəsdən sağlamlığa ağır zərər vurulması məqsədilə cinayətkar birlik yaratdıqları, eləcə də onun fəaliyyətində iştirak etdikləri müəyyən olunub.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə bütün halların, saxlanılanların hər birinin cinayətdə iştirakının, cinayətkar birliyin fəaliyyət istiqamətləri və əlaqələrinin müəyyən edilməsi məqsədilə zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Qohumdan gələn ziyan

Qanunsuz əməllərin üstü açılıb

Zaqatala rayonunda yerləşən evdən pul oğurlanması barədə polisə məlumat daxil olub.

Polisin keçirdiyi tədbirlərlə əməli törətməkdə şübhəli bilinən R. Musayev müəyyən edilərək saxlanılıb.

Araşdırmalarla onun rayon ərazisində yerləşən bir neçə fərdi yaşayış evindən də oğurluq etdiyi müəyyənləşdirilib. Həmçinin Göyçay rayonunda da silsilə oğurluqlar törədilib Evlərə daxil olan naməlum şəxslər 24 min manatdan artıq pulu və 2500 manat dəyərində məişət əşyalarını talayaraq ələ keçiriblər. Polisin keçirdiyi tədbirlərlə qeyd olunan cinayət əməllərini törətməkdə şübhəli bilinən R. Ağayev və qayınatası R. Dadaşov saxlanılıb.

Faktlarla bağlı cinayət işi başlanılıb, hər üç şəxs məhkəmənin qərarı ilə həbs olunub.

Narkotacirlərin niyyəti baş tutmadı

Polis narkotiklərin qanunsuz dövriyyəsinə imkan verməyib

Polis narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində əməliyyatlar keçirib. Paytaxtda, eləcə də Gəncə və Sumqayıt şəhərlərində keçirilən tədbirlərlə O. Quliyev, M. Seyidov, M. Abuşov, İ. Məmmədov, M. Məmmədov, M. Mənafov və E. Əliyev saxlanılıblar. Onlardan ümumilikdə 82 kiloqram narkotik vasitə və 6365 ədəd narkotik tərkibli həb aşkarlanıb. Araşdırmalarla saxlanılan şəxslərin xaricdə yaşayan narkotacirlərin tapşırıqları əsasında qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilən narkotiklərin qanunsuz dövriyyəsini təşkil etdikləri müəyyən olunub.

Faktlarla bağlı cinayət işləri başlanılıb. Saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Milyonluq vədin qanunsuz sonu

Axtarışda olan şəxs saxlanılıb

Polisə tikinti və təmir işlərinin görülməsi adı altında vətəndaşların pul vəsaitlərinin ələ keçirilməsi barədə müraciətlər daxil olub. Araşdırmalar zamanı tikinti şirkətlərindən birinin rəhbəri E. Əliyevin fərdi yaşayış evi təmiri üçün bir vətəndaşdan 888 min 731 manat aldığı, lakin nəzərdə tutulan işləri tam yerinə yetirmədiyi müəyyən edilib. Ekspert rəyinə əsasən müəyyən edilib ki, həmin ünvanda görülmüş tikinti işlərinin ümumi dəyəri 317 min 160 manat təşkil edib. Qalan vəsait isə həmin şəxs tərəfindən ələ keçirilib.

Bundan başqa, şirkət rəhbərinin digər zərərçəkəndən də tikinti və təmir məqsədilə hissə-hissə 450 min manat aldığı, lakin işləri yarımçıq saxladığı barədə müraciət də araşdırılıb. Həmin vətəndaş zərərçəkmiş şəxs qismində istintaq orqanında tanınaraq müvafiq ekspertizalar təyin edilib.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb olunan və istintaqdan yayındığı üçün barəsində axtarış elan edilən E. Əliyev tutularaq istintaqa təqdim olunub.

Araşdırma aparılır.

Polis kapitanı dünya çempionu olub

O, dünya rekordunu da yeniləyib



Polşa Respublikasının Pabyanitse şəhərində "GPC World Championship" adlı turnir keçirilib. Otuz beş ölkədən 4 000-dən çox idmançının iştirak etdiyi Poverliftinq üzrə Dünya Çempionatında ölkəmizi DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının baş inspektoru polis kapitanı F. Məhərrəmov təmsil edib.

"Bench press" (uzanaraq ştanq qaldırma) növündə mübarizə aparan F. Məhərrəmov 270 kiloqramlıq nəticə göstərərək öz kateqoriyasında birinci yeri tutub. O, daha sonra 280 kiloqram ağırlığın öhdəsindən gələrək dünya rekordunu yeniləyib.

İdmançımız çempionatın qızıl medalı və kuboku ilə təltif edilib, ona müvafiq sertifikatlar təqdim olunub.

Çoxnövçülük çempionatı

Post-patrul xidməti əməkdaşlarının yarışına yekun vurulub

Daxili İşlər Nazirliyinin post-patrul xidməti əməkdaşları arasında çoxnövçülük üzrə respublika yarışı başa çatıb.

Yarışda respublikanın müxtəlif şəhər və rayon polis orqanlarını təmsil edən 15 komandanın 60 əməkdaşı mübarizə aparıb. İştirakçılar çoxnövçülüyün ayrı-ayrı növləri üzrə fiziki hazırlıq və bacarıqlarını nümayiş etdiriblər.

Komandalar arasında rəqabət şəraitində keçən yarışın yekun nəticələrinə əsasən, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin komandası birinci yerə layiq görülüb. Suraxanı Rayon Polis İdarəsinin komandası ikinci, Nəqliyyatda Baş Polis İdarəsinin komandası isə üçüncü yeri tutub.

Qeyd edək ki, bu cür yarışlar şəxsi heyətin fiziki hazırlığının yüksəldilməsinə, dözümlülük və çeviklik kimi keyfiyyətlərinin inkişafına, həmçinin əməkdaşlar arasında komanda ruhunun möhkəmləndirilməsinə töhfə verir.

Miqrant qaçaqmalçılığı

On yeddi ölkə birgə əməliyyat keçirib

Avropa İttifaqının Hüquq-Mühafizə Əməkdaşlığı Agentliyinin (Europol) dəstəyi ilə miqrant qaçaqmalçılığı, sənəd saxtakarlığı və cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılması ilə məşğul olan beynəlxalq cinayətkar şəbəkəyə qarşı əməliyyat keçirilib. Şəbəkənin Şengen zonasındakı hava limanları vasitəsilə miqrantların qanunsuz olaraq Böyük Britaniyaya aparılmasını təşkil etdiyi aşkarlanıb.

Bu istiqamətlə həyata keçirilən tədbirlərlə Avstriya, İtaliya, İspaniya və Böyük Britaniyada altı nəfər saxlanılıb. Axtarışlar zamanı şəxsiyyət vəsiqələri, elektron avadanlıqlar, külli miqdarda nağd pul və istintaq üçün əhəmiyyət kəsb edən digər maddi sübutlar aşkarlanıb.

Araşdırmalara əsasən miqrantların bəzi hallarda Avropa İttifaqı ərazisinə turist vizaları əsasında daxil olduqları müəyyən edilib. Daha sonra isə onlar vəsiqələrini məhv edərək şəbəkənin təqdim etdiyi saxta sənədlərdən istifadə ediblər. Vyana şəhərində fəaliyyət göstərən qruplaşma üzvlərinin miqrantları saxta sənədlərlə təmin edib. İspaniyadakı digər qrupun isə çoxsaylı saxta sənədlər hazırlayaraq dövriyyəyə buraxdığı bildirilir. İstintaq məlumatlarına əsasən, Birləşmiş Ərəb Əmirliklərindən kuryerlər vasitəsilə göndərilən 1000-dən çox saxta şəxsiyyət sənədi Avropa İttifaqı ölkələrinə, Şimali və Cənubi Amerika, eləcə də Karib hövzəsi ölkələrinə çatdırılıb.

Sənədlərin kriminalistik ekspertizası

Kağız, mürəkkəb və imza sənədlərdə saxtakarlığı üzə çıxarır

Bəzən bir kağız parçası cinayət işinin ən mühüm sübutlarından birinə çevrilir. Sənədin üzərindəki imza, möhür, tarix və ya bir neçə sətirlik qeyd ilk baxışdan adi görünə bilər. Lakin həmin sənədin arxasında saxtakarlıq, qanunsuz əməliyyat və ya kiminsə hüquqlarının pozulması dayanarsa, hər bir detalın araşdırılması vacib olur. Belə hallarda sənədlərin kriminalistik ekspertizası işə düşür.



Mütəxəssislər sənədin necə hazırlandığını, onun üzərində dəyişiklik edilib-edilmədiyini və ayrı-ayrı izlərin hansı xüsusiyyətlər daşıdığını müəyyənləşdirməyə çalışırlar. Şəxsiyyət vəsiqələri, pasportlar, sürücülük vəsiqələri, diplomlar, müqavilələr, etibarnamələr və müxtəlif arayışlar hüquqi əhəmiyyət daşıyan sənədlər sırasındadır. Onların saxtalaşdırılması şəxsin kimliyinin gizlədilməsinə, qanunsuz üstünlük əldə edilməsinə və digər cinayətlərin törədilməsinə şərait yarada bilər. Bununla belə, saxtakarlıq yalnız tamamilə saxta sənəd hazırlamaqdan ibarət deyil. Bəzən həqiqi sənədin üzərindəki məlumat dəyişdirilir, başqa şəxsin imzasından istifadə olunur və ya sənədə sonradan əlavə qeydlər daxil edilir.

►Hər detal öz izini saxlayır

Sənədin araşdırılması zamanı ilk növbədə onun ümumi vəziyyəti və fiziki xüsusiyyətləri qiymətləndirilir. Kağızın quruluşu, çapın keyfiyyəti, yazıların yerləşməsi, möhür və imza izləri, eləcə də sənədin ayrı-ayrı hissələri arasındakı uyğunluq diqqətlə yoxlanılır. Lakin adi gözlə görünən fərqlər həmişə saxtakarlıq demək deyil. Sənədin köhnəlməsi, zədələnməsi və ya keyfiyyətsiz çap olunması da müəyyən uyğunsuzluqlar yarada bilər. Buna görə də şübhə doğuran hər bir detal digər əlamətlərlə birlikdə araşdırılır.

Rəsmi sənədlərdə istifadə olunan qoruyucu elementlər də yoxlamanın mühüm hissəsidir. Xüsusi çap üsulları və digər mühafizə vasitələri sənədin həqiqiliyini müəyyənləşdirməyə kömək edir. Bunun üçün sənədin müvafiq nümunələri ilə müqayisə aparılır, zəruri hallarda xüsusi ultrabənövşəyi işıq cihazlarından və böyüdücü alətlərdən istifadə olunur. Sənədin növündən asılı olaraq, adi gözlə seçilməyən bəzi xüsusiyyətlər yalnız xüsusi avadanlıq vasitəsilə müşahidə edilə bilər.

►Mürəkkəb və imza nə deyir?

Kriminalistik ekspertizanın əsas istiqamətlərindən biri yazıların və imzaların araşdırılmasıdır. Şübhə doğuran imza şəxsin əvvəlki imzaları və müqayisə üçün təqdim edilən nümunələrlə tutuşdurula bilər. Mütəxəssislər yazı vərdişlərini, hərflərin formasını, xətlərin xüsusiyyətlərini və digər fərqləndirici əlamətləri qiymətləndirirlər. Məqsəd imzanın kimə məxsus olduğunu və onun həqiqiliyini elmi əsaslarla müəyyənləşdirməkdir.

Sənədin ayrı-ayrı hissələrində istifadə edilən mürəkkəblərin və çap üsullarının araşdırılması da mühüm nəticələr verə bilər. Məsələn, sənəddəki müəyyən qeyd sonradan əlavə edilibsə, bu mürəkkəb və digər fiziki xüsusiyyətlərin müqayisəsi zamanı üzə çıxa bilər. Bəzi hallarda silinmiş, örtülmüş və ya oxunması çətinləşdirilmiş yazıların məzmununu müəyyənləşdirmək üçün xüsusi tədqiqat üsullarına müraciət olunur. Kağız üzərində görünməyən izlər də diqqətdən kənarda qalmır. Vərəqin üzərinə başqa bir kağız qoyularaq yazı yazıldıqda altdakı səthdə təzyiq izləri qala bilər. Bu izlərin araşdırılması əvvəllər yazılmış mətnin müəyyən hissələrini üzə çıxarmağa kömək edə bilər. Beləliklə, sənədin yalnız üzərində görünən məlumatlar deyil, onun hazırlanması zamanı yaranmış izlər də tədqiqatın predmetinə çevrilir.

►Laboratoriyada həqiqət axtarışı

Sənəddə saxtakarlıq əlamətləri aşkarlandıqda və ya onun həqiqiliyi ilə bağlı əsaslı şübhə yarandıqda xətşünaslıq ekspertizasının aparılmasına zərurət yarana bilər. Laboratoriyada sənədin kağızı, mürəkkəbi, çap xüsusiyyətləri, möhür və ştampların izləri araşdırılır. İstifadə olunan avadanlıq sənədin müxtəlif xüsusiyyətlərini müqayisə etməyə, bəzi gizli izləri müəyyənləşdirməyə və dəyişdirilmiş hissələri üzə çıxarmağa imkan verir.

Ekspertiza zamanı yalnız sənədin saxta olub-olmaması deyil, araşdırmanın məqsədindən asılı olaraq, onun hansı üsulla hazırlandığı, üzərində dəyişiklik edilib-edilmədiyi və yazıların mənşəyi də müəyyənləşdirilə bilər. Bəzi hallarda əldə edilən nəticələr sənədin hazırlanması və ya dəyişdirilməsi ilə bağlı istintaq üçün mühüm istiqamət yaradır. Ekspertin rəyi digər sübutlarla birlikdə qiymətləndirilir və iş üzrə yekun qərarın qəbul edilməsində nəzərə alınır. Sənədin ilkin vəziyyətinin qorunması da bu prosesin vacib şərtlərindəndir. Araşdırılan sənədin üzərinə əlavə qeydlər yazılması, onun təmizlənməsi və ya ehtiyatsız davranılması bəzi izlərin itməsinə səbəb ola bilər. Buna görə də sənəd müəyyən edilmiş qaydalara uyğun qorunmalı və ekspertə müvafiq qaydada təqdim edilməlidir.

Sənədlərin ekspertizası təkcə saxtakarlığı aşkar etmək üçün deyil, cinayət işinin hallarını aydınlaşdırmaq baxımından da əhəmiyyətlidir. Bəzən bir imzanın, mürəkkəb izinin və ya kağız üzərindəki zəif təzyiq xəttinin araşdırılması hadisənin gedişi barədə mühüm məlumat verir. Bu işdə diqqət, peşəkarlıq və elmi yanaşma əsas şərtlərdir. Çünki sənədin üzərindəki kiçik bir detal belə düzgün araşdırıldıqda, həqiqətin üzə çıxarılmasına kömək edə bilər.

Aytən Tahirova


Telefon oğurluğunun beynəlxalq şəbəkəsi

Londonda üç nəfərə ümumilikdə 25 il həbs cəzası verilib

Mobil telefonun oğurlanması çox vaxt bir neçə saniyə ərzində baş verir. Küçədə, ictimai nəqliyyatda və ya insanların sıx olduğu ərazilərdə bir anlıq diqqətsizlik kifayət edir ki, şəxs telefonunu itirsin. Lakin bəzi hallarda telefon oğurluqları geniş cinayət şəbəkələrinin həyata keçirdiyi mütəşəkkil fəaliyyətin bir hissəsi olur. Böyük Britaniyanın paytaxtı Londonda aparılan genişmiqyaslı əməliyyat məhz belə bir şəbəkənin fəaliyyətini üzə çıxarıb. Küçələrdən oğurlanan telefonlar toplanır, müxtəlif şəxslər vasitəsilə daşınır və xaricə göndərilirdi. İstintaqın nəticələrinə görə, 2024–2025-ci illərdə Böyük Britaniyadan Çinə 40 minədək oğurlanmış mobil telefonun daşınması bu şəbəkə tərəfindən həyata keçirilib. Londonda göstərilən dövrdə oğurlanan bütün telefonların təxminən 40 faizi məhz bu şəbəkənin adı ilə bağlıdır. Cinayət şəbəkəsinin ifşa olunması Hitrou hava limanının yaxınlığındakı anbarda aşkarlanan telefon partiyası ilə başlayıb. 2024-cü ilin dekabrında Honkonqa göndərilmək üçün hazırlanmış bağlamada təxminən 1000 ədəd "iPhone" markalı mobil telefon aşkar edilib. Telefonların demək olar ki, hamısının oğurlandığı müəyyənləşdirilib. Bu hadisə daha geniş cinayət fəaliyyətinin üzə çıxarılmasına imkan verib və "Echosteep" adlı xüsusi əməliyyata başlanılıb. İstintaqın əsas məqsədi küçədə telefon oğurlayan şəxslərlə həmin cihazları qəbul edən, toplayan və xaricə göndərilməsini təşkil edən şəxslər arasındakı əlaqəni müəyyənləşdirmək idi. Adətən silahlı soyğunçuluq və narkotik qaçaqmalçılığı kimi cinayətləri araşdıran ixtisaslaşmış müstəntiqlər əməliyyata cəlb olunublar. Onlar digər telefon göndərişlərini izləyib, bağlamalar üzərindəki kriminalistik izləri araşdıraraq şəbəkənin iştirakçılarını müəyyənləşdirməyə çalışıblar.

İstintaq zamanı Amir Muhammad Khadikhel, İsmat Miakhel və Mansoor Mohammed adlı şəxslərin bu fəaliyyətlə əlaqəsi müəyyən edilib. 2025-ci ilin sentyabrın 23-də polis bu şəxsləri Londonun şimal-şərqində saxlayıblar. Onların avtomobilindən yüzlərlə mobil telefon götürülüb. Bundan əlavə, həmin şəxslərlə əlaqəli ünvanlarda daha 2000 mobil cihaz müsadirə edilib.

"Echosteep" əməliyyatının əsas xüsusiyyətlərindən biri oğurlanmış telefonların müxtəlif şəxslər vasitəsilə xaricə göndərilməsi zəncirinin araşdırılması idi. Telefonun küçədə oğurlanması cinayətin yalnız başlanğıc mərhələsidir. Cihaz başqa şəxslərə ötürüldükdən sonra onun hərəkətini izləmək və qanunsuz dövriyyəyə çıxarılmasını müəyyənləşdirmək daha mürəkkəb prosesə çevrilir. Polis əməkdaşları məhz bu əlaqələri araşdıraraq oğurluq, telefonların qəbul edilməsi və ixracı arasındakı əlaqəni üzə çıxarıblar.



Təqsirləndirilən şəxslər 2026-cı ilin aprelində ittihamları qəbul ediblər. Sentyabrın 25-də onlara hökm oxunub. Amir Muhammad Khadikhel 9 il 6 ay, İsmat Miakhel 9 il, Mansoor Mohammed isə 6 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər.

London polisi mobil telefon oğurluğuna qarşı mübarizəni xüsusilə diqqətdə saxlayır. Polisin məlumatına görə, cinayətlərin daha çox qeydə alındığı ərazilərdə polisin nəzarət tədbirləri gücləndirilib. Əməliyyatlarda dronlardan, yüksək sürətli elektrik velosipedlərindən, üz tanıma texnologiyasından və ixtisaslaşmış polis qruplarından istifadə olunur. Məqsəd şübhəliləri müəyyənləşdirməkdən başqa həm də oğurlanmış telefonları qəbul edən və xaricə göndərən şəxslərin fəaliyyətini dayandırmaqdır.

"Echosteep" əməliyyatı göstərdi ki, mobil telefon oğurluğu yalnız cihazın sahibindən alınması ilə yekunlaşmır. Oğurlanmış telefonların toplanması, daşınması və xarici bazarlara çıxarılması mütəşəkkil cinayət fəaliyyətinin tərkib hissəsinə çevrilə bilər. Londonda aparılan istintaq nəticəsində üç nəfərin uzunmüddətli həbs cəzasına məhkum edilməsi cinayətə qarşı mübarizədə oğurlanmış əşyaların sonrakı hərəkət istiqamətinin araşdırılmasının və şəbəkənin müxtəlif mərhələlərində iştirak edən şəxslərin məsuliyyətə cəlb olunmasının əhəmiyyətini göstərir.

POLİS

REDAKTOR:
ANAR QAFAROV

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik